*Cahangir MƏMMƏDLİ*
*Günel MEHDİZADƏ*

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN İNKİŞAFI MÜASİR MƏTBUATIMIZIN APARICI TEMATİKASI KİMİ

## РЕЗЮМЕ

Статья посвящена освещению в азербайджанской прессе процесса государственного развития. Наша современная пресса, основанная на исторических традициях журналистики, рассматривает политические,

экономические и общественные отношения нашей страны с другими государствами, пути государственного строительства в Азербайджане. Здесь на основе двух серьёзных газет, таких как государственная газета «Азербайджан» и независимая газета «Каспи», анализирует их действия в этой области. В частности, основу статьи составляют идеи национальной школы, созданной общенациональным лидером Гейдаром Алиевым.

***Ключевые слова:*** пресса, государственность, национальные интересы, политика, экономика, журналистика

## SUMMARY

The article is devoted to the lighteneth of the statehood development process in the Azerbaijani press. The activities of our press are investigated about our modern press on the base of historical traditions of our Journalism, state establishment of independent Azerbaijan, political, economic, public relations of our country with other states etc. The activities of two serious samples of our press - state newspaper "Azerbaijan" and independent "Kaspi" is analyzed here.

Especially, national leader Heydar Aliyev's statehood school is the main character of the article.

***Keywords:*** press, statehood, national interest, politics, economics, journalism

Azərbaycan qədim dövlətçilik ənənələrinə malikdir. "Azərbaycan ərazisində yaranmış qədim dövlətlər (Manna, Atropatena, Albaniya) ayrı-ayrı dövrlərdə müstəqil xarici siyasət yürüdərək, ətraf aləmin vəziyyətindən asılı olmayaraq öz ərazilərini və dövlətçiliyini qorumağa səy göstərmişlər. Lakin dünyada yaranmış geosiyası və hərbi –geostrateji vəziyyətin təsiri altında zaman-zaman Azərbaycanın siyasi coğrafiyasında da müəyyən dəyişikliklər olmuş, onun ərazisində mövcud olan dövlətlər nə qədər ciddi müqavimət göstərsələr də, müxtəlif tarixi mərhələlərdə yadelli işğalçıların, daha güclü region dövlətçiliyinin, böyük imperiyaların hökmranlığı altına düşmüşlər" [7, s.20]. Qədim tarixi dönəmlər bir yana, artıq XVII əsrin sonlarında və XX əsrin əvvəllərində formalaşmağa başlayan Azərbaycan dövlətçiliyi Rusiya, İran kimi güclü imperiyaların dava meydanında ikiyə bölünmüş və Araz çayı boyu sərhədlənən bu bölgü hələ də davam etməkdədir. Bu il Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi sərəncamı ilə 100 illiyini qeyd etməkdə olduğumuz Xalq Cümhuriyyəti demokratik dövləti də 1918 may, 1920 aprel tarixi arasında cəmi 23 ay mövcud olmuş və sovet imperiyası tərəfindən susdurulmuşdur. İlk növbədə Türkiyənin və bir sıra Avropa dövlətlərinin tanıdığı Xalq Cümhuriyyətini Rusiya tanımadı və 1920-ci ilin aprelində Azərbaycanı işğal etdi. Bütün bu proses həm də ermənilərin – erməni- daşnak-bolşevik qüvvələrinin əli ilə həyata keçirilirdi. Bolşeviklərin başçısı V.İ.Lenin "nəyin

bahasına olursa olsun, Azərbaycanın istiqlalına son qoymağı, Bakı neftinə, Azərbaycanın əlverişli strateji mövqelərinə və zəngin təbii sərvətlərinə yiyələnməyi tövsiyə edirdi" [7, s.77].

Beləliklə, Rusiya Azərbaycanı işğal edərək onu da Sovet Sosialist Respublikaları sırasına qatdı və müstəqilliyini əlindən aldı. Azərbaycan bir sovet respublikası kimi 1991-ci ilə qədər SSRİ-nin tərkibində qaldı. 1992-ci ildə xalqın, millətin yeni müstəqillik dalğası Azərbaycanı suveren dövlətə çevirdi. Bununla belə, bu müstəqilliyi bərpa edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti dövründə idarəçiliyin səriştəsizliyi ucbatından müstəqilliyimiz təhlükə altına düşdü. Belə bir şəraitdə böyük dövlətçilik təcrübəsi olan Heydər Əliyev xalqın tələb və təkidi ilə Azərbaycanda hakimiyyətə gəldi və özünün dövlətçilik konsepsiyasını yaratdı. O zaman Heydər Əliyev xüsusi qeyd edirdi ki, "müstəqil dövlət taleyin xalqımıza bəxş etdiyi dəyərli töhfə və əvəzsiz milli sərvətidir. Lakin müstəqilliyin qorunması, ölkənin milli inkişafının və təhlükəsizliyinin təmin edilməsi ondan da qat-qat çətin idi, ölkə rəhbərliyindən, hər bir vətəndaşdan xüsusi səy, məsuliyyət və iradə tələb edirdi. Yeni tarixi şərait Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, demokratik, hüquqi və dünyəvi dövlət qurulması, ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkənin və onun əhalisinin inkişafının, təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi vəzifələr qoyurdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin həyata keçirilməsini, ölkənin intellektual və sosial – iqtisadi potensiyalından, ictimai – siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi" [20]. Heydər Əliyevin bu ideyaları demokratik dövlət konsepsiyasıdır və o, ölkəyə rəhbərlik etdiyi on il müddətində belə bir dövlət qura bildi.

Müstəqilliyimizin ilk illərində Ermənistan torpaq iddiaları ilə daha da qızışdırıldı, Dağlıq Qarabağ problemi inkişafa mane oldu. Ölkədə bir neçə dəfə dövlət çevrilişinə cəhd edildi. Amma xalq Heydər Əliyevi heç vaxt tək qoymadı. Təkcə S.R.Hüseynovun, Cavadovun dövlət çevrilişinə cəhdlərini yada salsaq, dövlətmçiliyimizin hansı ağır sınaqlardan keçdiyini anlamaq müşkül olmaz. Ölkədə bu xaosun qarşısının alınmasında Azərbaycan mətbuatı da mühüm rol oynadı. "Xalq qəzeti", "Azərbaycan", "Respublika" kimi mətbuat orqanlarının 1990-cı illərin əvvəllərindəki nömrələrində bu hadisələrə jurnalistlərimizin vətəndaşlıq münasibəti adamda qürur hissi doğurur.

Prezident Heydər Əliyev demokratik dövlət quruculuğunda mətbuatın rolunu çox yüksək qiymətləndirirdi. O, tez-tez jurnalistlərlə görüşlər keçirir, onları dinləyir, qayğı göstərirdi. Belə görüşlərdən biri 2001-ci il dekabrın 18-də Prezident Sarayında keçirilmişdir. Həmin görüşdə bir çox jurnalisti dinləyən, onların təkliflərinə diqqət edən Heydər Əliyev demişdir: "Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdir. Bu mənim siyasətimin bir hissədir" [6, s.350]. Heydər Əliyev

bilirdi ki, demokratik dövlət quruculuğunda mətbuat çox mühüm rol oynayır. O deyirdi: "Müstəqil demokratik və hüquqi dövlət quruculuğu prosesini yaşayan Azərbaycan dövlətinin ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, mətbuat və informasiya sahəsində də demokratiya prinsiplərinə dönmədən əməl olunur". Müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm mətbuat və informasiya sahəsində Azərbaycan dövlətinin yeritdiyi siyasətin əsasını təşkil edir [5, s. 307]. Mətbuatın ən böyük vəzifələrindən biri ictimai rəy yaratmaqdır. "Demokratik dövlət quruculuğu şəraitində ictimai rəy həqiqətən güclü bir silaha çevrilir" [9, s. 221]. Bir elmi ədəbiyyatda doğru qeyd edilir ki, hər bir ölkənin, hər bir dövlətin və hər bir millətin demokratik inkişaf yolu mütləq mətbuatdan keçir [11, s. 14]. Azərbaycan jurnalistikasının böyük tədqiqatçısı, professor Şirməmməd Hüseynov uzun təcrübədən belə qənaətə gəlir ki, "demokratiya olmayan yerdə hüquqi dövlət olmaz" [8, s. 34]. Ona görədir ki, Azərbaycanın müasir mətbuatı demokratik dəyərlərə malikdir və bununla da dövlətçiliyimizin inkişafında çox böyük rol oynamaqdadır. Azərbaycan media sistemində xüsusi çəkisi olan "Azərbaycan" ,"Kaspi" kimi qəzetlər bu sahədə müntəzəm fəaliyyət göstərməkdədirlər.

Biz niyə məhz bu iki qəzeti mövzumuzla bağlı tədqiqat obyekti seçdik? Ona görə ki, bu qəzetlərin hər biri ayrı-ayrı tipoloji xarakterə malikdir. Tipoloji xarakter dedikdə qəzetin öz informasiya siyasətinə görə hansı auditoriyaya ünvanlandığı nəzərdə tutulur. Qeyd etdiyimiz "Azərbaycan" qəzeti Azərbaycan Respublikası Milli Məclisinin orqanıdır, "Kaspi" müstəqil qəzetdir. Deməli dövlət və müstəqil tipli qəzetlərin Azərbaycanda dövlət quruculuğunun inkişafındakı roluna nəzər salacağıq.

"Azərbaycan" qəzetinin dövlət quruculuğu prosesindəki fəaliyyətinin ayrıca tarixi var. Bu qəzet Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış Cümhuriyyət quruculuğuna xidmət etmiş, sovetlərin işğalından sonra nəşrini dayandırmış və 1988-ci ildə, müstəqillik uğrunda mübarizə dövründə yenidən bərpa edilmişdir. "Azərbaycan" rəsmi dövlət qəzeti kimi müasir dövrdə milli maraqların qorunması, dövlətçiliyin inkişafı kimi ciddi vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir. Biz "Azərbaycan" qəzetinin hansı ilinə, hansı ayına və hansı nömrəsinə diqqət etsək mütləq orada dövlətçiliyimizin qorunması, dövlətçiliyimizin inkişaf etdirilməsi kimi tematikanı birinci sırada görəcəyik. Bu faktın inkaredilməzliyini sübut üçün biz qəzetin bu məqaləni hazırlamağa başladığımız yaxın vaxtlardakı nömrələrinə baxa bilərik. Qəzetin 1 avqust 2018-ci il tarixli nömrəsinə nəzər salaq: Əlbəttə, qəzet məntiqi olaraq, Azərbaycan Prezidentinin iş günü haqqında 1-ci səhifədə məlumat verir. Burada Prezidentin ayrı-ayrı ölkələrdəki mühüm hadisələrlə bağlı həmin ölkələrin başçılarına təbrikləri, Azərbaycan iqtisadiyyatının yeni uğurları və s. haqqında informasiyalar yer alıb. Qəzetin Azərbaycan dövlətçilyinə münasibətini aydın şəkildə göstərən "Milli varlığın təzahürü" [3] sərlövhəli geniş analitik yazısı milli dilimizi, dövlətimizin, milli varlığımızın atributu kimi təhlil edir. Bu

yazıda milli dilimizin tarixi kökləri, rast gəldiyi basqılar, imperiya dövründə bu dilə etinasızlıq faktları qələmə alınır, müstəqillik dövründə ona dövlət qayğısı konkret faktlarla ifadə edilir: "XX əsrin sonuncu onilliyində zamanın gərdişi dəyişdi. Azərbaycan xalqı yenidən öz dövlət müstəqilliyinə qovuşa bildi. Bundan sonra latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün tarixi şərait yarandı. Ana dilinin inkişafı və qorunması istiqamətində də əhəmiyyətli sənədlər qəbul olundu. Ölkədə tədricən latın qrafikalı əlifba tətbiq olunmağa başladı.

2001-ci ilin 18 iyununda "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Ulu öndər Heydər Əliyev fərman imzaladı. Həmin ilin avqustunadək ölkəmizdə latın əlifbasına keçid bütünlüklə təmin edildi. Əlifba dəyişikliyi ölkəmizdə bir sıra işlərin həyata keçirilməsi zərurətini yaratdı. Respublikamızın siyasi həyatında, yazı mədəniyyətimizin tarixində latın qrafikalı əlifbanın tətbiqinin mühüm hadisə olduğunu nəzərə alaraq Heydər Əliyev 2001-ci il avqustun 9-da "Azərbaycan Əlifbası və Azərbaycan dili Gününün təsis edilməsi haqqında" fərman imzaladı. Həmin fərmanla avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan dili Günü elan olundu" [3].

Yazının sonunda jurnalist Zöhrə Fərəcova ana dilimizin zənginliyi və gərəkliliyi barədə publisist fikrini dilə gətirir və oxucunu bu dili daha çox sevməyə çağırır:

"Bu gün dünyamızda 200-ə yaxın dövlətin hüdudlarında minlərlə millət və etnik qrup yaşayır. Rəsmi dövlət dillərinin sayı isə 70-dən çox deyil. Dünyanın qədim dil ailəsinə - türk dili qrupuna aid olan Azərbaycan dili isə tarixin ağır dönəmlərinin məşəqqətli sınaqlarından keçərək xalqının qurmağa müvəffəq olduğu Azərbaycan Respublikası adlı dövlətin rəsmi dili kimi böyük şərəfi daşıyır. Bu ölkənin sərhədlərindən kənarda da Azərbaycan dilinə "ana dilim" deyərək bu dildə danışmaqdan qurur duyan milyonlarla insan yaşayır. Bu böyük milli-mənəvi sərvətimiz ana dilimiz xalqımızın özü qədər əbədidir" [3].

Qəzet nömrələrinin birində iqtisadi müstəqilliyi dövlətin inkişafının, tərəqqinin təminatçısı kimi təhlil edir. Bu yazıda qeyd edilir ki, reyting agentlikləri 2022-ci ildə Azərbaycan dövlətinin daha da güclənəcəyini, onun iqtisadiyyatının 3,5 faiz artacağını qeyd edir. Bu yazıda göstərilir ki, Azərbaycanın valyuta ehtiyatı son 15 ildə 24 dəfə artmış, Azərbaycan dövləti ən islahatçı 3 ölkədən biridir [2]. Müəllif Rəşad Baxşaliyev analitik yazıya belə yekun vurur:

"Bütün göstəricilərə əsasən deyə bilərik ki, 2018-ci il Azərbaycan üçün uğurlu il olacaq. Təsadüfi deyil ki, artıq beynəlxalq reytinq də ölkəmizin vəziyyətinin yaxşı olduğunu göstərir və respublikamız daha yüksək yerlər tutmaqda davam edir. Bu, onu göstərir ki, Azərbaycan iqtisadiyyatı harmonik inkişaf edir və şaxələnmişdir. Bu da ölkədə tam müstəqil siyasətin aparılmasının bariz nümunəsidir.

Ümumiyyətlə, çox doğru olaraq Azərbaycan iqtisadiyyatı inklüziv iqtisadiyyat kimi səciyyələndirilir. Başqa sözlə desək, Prezident İlham Əliyevin

nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq ölkəmizdə güclü iqtisadi inkişaf dərin məzmunlu sosial siyasətlə tamamlanır. Bütün ölkə boyu infrastrukturun ən yüksək standartlar səviyyəsində yenidən qurulması, əhalinin rifahının yaxşılaşdırılmasına yönəldilən tədbirlərin miqyasının ilbəil genişləndirilməsi Azərbaycanın sosial dövlət kimi mənzərəsini göz önündə canlandırır" [2].

Məlumdur ki, Xəzərin statusunun müəyyənləşməsi Azərbaycan dövlətinin inkişafında çox mühüm bir hadisə oldu. Bu hadisəni ekspertlərin fikirləri ilə oxucuya çatdıran "Azərbaycan" qəzeti yazır:

"Avqustun 12-də Xəzəryanı ölkələrin siyasi həyatında mühüm bir tarixi hadisə yaşandı. Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusuna dair tarixi konvensiya imzalandı.

Belə ki, uzun illər aparılan danışıqların və müzakirələrin uğurlu nəticəsi olaraq zirvə toplantısının yekununda beş ölkənin dövlət başçıları - İlham Əliyev, Vladimir Putin, Nursultan Nazarbayev, Həsən Ruhani və Qurbanqulu Berdıməhəmmədov öz imzaları ilə Xəzər dənizinin hüquqi statusunu müəyyən edən sənədi təsdiq etdilər.

"Günün müzakirə mövzusuna çevrilən bu məsələ ilə bağlı siyasətçilər, ekspertlər birmənalı fikirlər səsləndirirlər. Qeyd edilir ki, Xəzər dənizinin hüquqi statusunu təsbit edən yeni beynəlxalq konvensiya ümumilikdə 24 maddədən ibarətdir. Sənəddə ərazi suları, dəniz sərhədləri, dənizin dibinin bölgüsü, na- viqasiya qaydaları, balıq ovu hüquqları, ətraf mühitin qorunması, dəniz elmi təd- qiqatları, hərbi əməkdaşlıq məsələləri, dənizin sərvətlərindən istifadə və başqa məqamların tənzimlənməsi yer alır. Razılaşmaya əsasən, Xəzərdə yalnız - sahil ölkələrinin hərbi dəniz donanmaları ola bilər. Sammit çərçivəsində mütəşəkkil cinayətkarlıq, terrorizmlə mübarizə və sərhəd qurumlarının qarşılıqlı fəaliyyətinə dair üç əlavə protokol da imzalandı. 22 il davam edən müzakirələr tarixi sənədin - Xəzərin statusunu müəyyənləşdirən konvensiyanın imzalanması ilə başa çatdı" [10].

Biz medianın informasiyalarından xəbər tuturuq ki, Azərbaycana tez-tez rəsmi qonaqlar gəlir və onların hamısı dövlətimizin sürətlə inkişafını xüsusi qeyd edirlər. "Azərbaycan" qəzeti daimi olaraq belə fikirləri oxucuya çatdırmaqla dövlətimizin inkişafı ilə bağlı bir tərəfdən oxucuda iftixar hissi yaradır, digər tərəfdən onun özünü bu tərəqqiyə dəstək olmağa çağırır. Çinin rəsmi nümayəndəsinin "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişaf edir və bu, hər yerdə hiss olunur" kimi bir fikirini böyük bir yazıya sərlövhə seçməklə bizi daha böyük uğurlara səsləyir [15].

Əlbəttə, Azərbaycan dövlətçiliyinin inkişafına mane olan Qarabağ problemi, işğal altında olan torpaqlarımızın azad edilməsi kimi məsələlər də "Azərbaycan" qəzetinin aparıcı mövzuları sırasındadır.

Biz bir məqalənin həcmini nəzərə alaraq müstəqil mətbuatımızın çox peşəkar nümunəsi olan "Kaspi" qəzetinin də dövlətçiliyimizin inkişafındakı roluna diqqət çəkmək istərdik.

Qeyd edək ki, "Kaspi" qəzetinin əsası 1881-ci ildə qoyulmuşdur. "Azərbaycanın çağdaş mətbuatı bütövlükdə varislik ənənəsi etibarı ilə "Əkinçi" qəzetinin A.B.Zərdabi irsinin davamçılarıdır. Lakin qısa bir ömür yaşayan "Əkinçi"nin ideyaları uzunömürlü "Kaspi" qəzetində reallaşdı. "Kaspi" milli ictimai fikrin formalaşmasında, milli istiqlal düşüncəsinin, milli birliyin, həmrəyliyin, milli təşəkkürün təşəkkülündə beyin mərkəzi idi. [16, s.6]" Deməli, bu qəzet yarandığı gündən müstəqillik ideyalarına xidmət etmişdir. "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında Azərbaycan ziyalılarının təfəkkür mərkəzi rolunu oynayan (Sona Vəliyeva) 1918-ci ildə nəşrini dayandıran "Kaspi" qəzeti 1999-cu ildən yenidən bərpa edildi.

"7 mart 1999-cu ildə eyni adla – "Kaspi" adı ilə oxucuların görüşünə gələn qəzet milli müstəqillik və dövlətçilik dövrünün övladıdır" [13, s. 116]. Bu qəzetin yeni nəşri Azərbaycan dövlətçiliyinin inkişafı mövzusunu əsas tematikaya çevirmişdir. Onu da xüsusi qeyd edək ki, "Kaspi" müstəqil qəzetdir. Müstəqil qəzet isə Azərbaycanın bu günü üçün çox vacibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyir: "Azərbaycanda sözün əsl mənasında müstəqil mətbuata, KİV-lərə böyük ehtiyac vardır... Əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işində müstəqil KİV-lərin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır" [4, s.52-53]. "Kaspi "qəzeti bu tipli mətbuat orqanları içərisində çox mühüm yer tutur. "Kaspi"nin mövzu dairəsi çox genişdir. 16-24 səhifə həcmində nəşr olunan qəzetin mövzu dünyasına ilk növbədə Azərbaycan dövlətçiliyi və Azərbaycançılıq daxildir. Qəzet Azərbaycan dövlətçiliyinin inkişafına təkan verən amilləri, vətənə sevgini, düşmənə, xüsusilə torpaqlarımızı işğal etmiş erməni təcavüzkarlarına qarşı mübarizə hissinin formalaşması məsələsini ön plana çəkir" [12, s.39].

Əlbəttə, qəzetin 1999-2018-ci illər arasında nəşr olunan 3500-dən çox nömrəsinin hamısında dövlətçiliyimizin inkişafı ilə bağlı materiallar vardır. Biz bu məqalədə "Kaspi" nin ən yaxın dövrdəki nömrələrinə nəzər salsaq görəcəyik ki burada araşdırdığımız mövzuya dair bir çox məqalə və digər janrlarda yazılar var.

Qəzetin dövlətçiliklə bağlı mövzuları sırasında iqtisadi inkişaf, hüquqi dövlət quruculuğu, sosial məsələlər və s. xüsusi yer tutur. Qəzetin nömrələrindən birində beynəlxalq agentliklərin Azərbaycanda dövlət quruculuğu, sosial və siyasi sabitlik sahəsində apardıqları monitorinqin nəticələri öz əksini tapıb.

Azərbaycan dövlətçiliyinin inkişafında ordu quruculuğu çox mühüm yer tutur. Qəzet bu məsələ ilə bağlı dövlət tədbirlərini, rəhbər işçilərin səylərini ifadə edən xəbərləri daim səhifəyə çıxarır. Belə materiallardan birində oxuyuruq:

**"Müdafiə naziri cəbhəboyu zonada yerləşən bölmələrin qışa hazırlığını yoxlayıb**

"Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində yerləşən bölmələrdə olublar.

Müdafiə Nazirliyindən verilən məlumata görə, çətin iqlim şəraitində və dağlıq ərazidə düşmənlə qarşıdurma xəttindəki bölmələrdə olarkən əməliyyat şəraiti barədə məruzəni dinləyən Müdafiə naziri üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib.

Hərbi qulluqçuların döyüş və mənəvi- psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanan Müdafiə naziri qarşıdan gələn qış dövrünə zəruri hazırlıq işlərinin görülməsi barədə vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

Bildirilib ki, ön xətdə yerləşən bölmələr içməli su, istilik sistemləri, yuyunma otaqları, isti yataq və digər lazımi qış ləvazimatları ilə tam təmin olunub.

Sonra nazir sərhədyanı ucqar dağ kəndlərindən birində yerli sakinlərlə görüşərək, yaşayış məntəqələrimizin müdafiəsinin və əhalinin təhlükəsizliyinin təmin edilməsi barədə söhbətlər aparıb.

Müdafiə Nazirliyinin rəhbərliyi ilə söhbət zamanı ucqar dağ kəndinə rahat asfalt yolunun salınması, qaz və işıq xətlərinin çəkilməsinə görə öz məmnunluqlarını ifadə edən kənd sakinləri müdafiə nazirindən onların minnətdarlığını ölkə rəhbərliyinə, cənab Ali Baş Komandana çatdırmasını xahiş ediblər.

Kənd camaatı Azərbaycan Ordusunun bölmələri tərəfindən bu istiqamətdə yerləşən yaşayış məntəqələrinin təhlükəsizliyinin etibarlı təmin edildiyini və əhalinin hərbçilərə etimadının yüksək olduğunu da bildirib. Sonra yerli sakinlərlə söhbət çay süfrəsi ətrafında davam etdirilib" [17].

Qəzet Azərbaycan Prezidentinin Vətən uğrunda mübarizə aparmış insanlara qayğısını işıqlandırmağa xüsusi diqqət yetirir:

**"Prezident Qarabağ əlillərinə və şəhid ailələrinə 20 milyon manat ayırdı**

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə əlaqədar, Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20 milyon manat ayrılsın.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılır" [17]. Qəzet "Müstəqilliyimizin Naxçıvandan başlayan inkişaf yolu" sərlövhəli bir səhifəlik geniş təhlili yazıda "3 sentyabr 1991-ci ildə milli dövlətçiliyimizin əsaslarını qoyulduğu, xalqımızın var olma, özünü dünyada təsdiq etmək kimi arzu və amallarının başlanğıc tarixi kimi vacib bir məsələni gündəmə gətirmiş, bu tarixi hadisəni ümummilli liderimiz Heydər Əliyevin yaratdığını iftixar hissilə qeyd etmişdir. Həmin yazıda deyilir:

"Tarixi şəxsiyyətlər mənsub olduğu xalqın yaddaşında hər zaman yaşayır. Ancaq elə şəxsiyyətlər də var ki, onların xidmətləri daha fenomenal xarakter daşıyır. Bu mənada, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti, sadəcə, bir ölkə üçün yox, həm də bəşəri dəyərləri ilə seçilir".

Görkəmli dövlət xadiminin 1990-cı il iyulun 22-də Moskvadan Bakıya, oradan isə doğma yurdu Naxçıvana gəlişi sonralar özünün də söylədiyi kimi, tarixin və zamanın hökmü idi. Azərbaycanın ən yeni tarixində mürəkkəb proseslərin getdiyi həmin vaxtda qədim Naxçıvan diyarında Ümummilli Liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildiyi gün bu hökmün yəqinliyini ötən dövrdə hər kəsə sübut etdi. Müstəqilliyini yenicə qazanmış bir ölkəni tarixin təlatümlü burulğanından qurtarmaq missiyasının başlanğıcı olan 1991-ci ilin 3 sentyabrı, eyni zamanda, milli dövlətçiliyimizin əsaslarının qoyulduğu, xalqımızın var olma, özünü dünyada təsdiq etmək kimi arzu və amallarının başlanğıc tarixi idi. Ümummilli liderimiz Heydər Əliyev məhz həmin tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada on minlərlə naxçıvanlının təkidi ilə Ali Məclisin sədri seçilmişdi" [14].

Daha sonra xüsusi yarımbaşlıqlar altında bu tarixin hadisələri təhlil edilir. "Ulu öndər sentyabrın 3-də xilaskarlıq missiyasını öz üzərinə götürdü" (Naxçıvan dövrü – C.M.). "Müstəqilliyimiz Naxçıvanda yenidən doğuldu" "Azərbaycan Xalq Cümhuriyyətinin varislik ənənələri ilk dəfə Naxçıvanda bərpa olunub, "Respublikamızın digər dövlətlərlə dinc, səmimi dostluq şəraitində əməkdaşlıq etməsinin əsası qədim diyarda qoyulub", "İlk torpaq islahatları", Xalqın istək və arzularını reallaşdıran Yeni Azərbaycan Partiyası Naxçıvanda yaradılıb". "Naxçıvandan başlayan müstəqillik yolu ölkə miqyasında davam etdirilib", "Heydər Əliyevin siyasi xəttinə sədaqət Naxçıvan Muxtar Respublikasını çiçəklənən diyara çevirib" kimi yarımsərlövhələr bu yazının əsas mahiyyətini aydınca ifadə edir. Heydər Əliyevin yaratdığı Azərbaycan dövlətinin bugünkü siyasi, ictimai, iqtisadi inkişafı qəzetin "Azərbaycan və Rusiya əməkdaşlığının yeni "yol xəritəsi" adlı yazıda yüksək şəkildə öz əksini tapır. Tanınmış ekspertlərin fikirləri ilə hazırlanan bu yazıda millət vəkili Elman Nəsirov, milət vəkili Hikmət Məmmədov Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyevin Soçi görüşünün hər iki ölkənin ictimai –siyasi, iqtisadi inkişafına təsir edəcəyi vurğulanır. Bu yazırda özünü göstərən faktlara diqqət edək:

"Azərbaycanla Rusiya arasında siyasi, iqtisadi, hərbi və digər sahələrdəki əlaqələr tarixi ənənələrə söykənir. Son illər ərzində bu əlaqələr yaxın

dostluq və strateji əməkdaşlıq mahiyyəti daşımağa başlayıb. Prezident İlham Əliyevin sentyabrın 1-də Rusiyaya rəsmi səfəri isə iki ölkə arasındakı münasibətlərdə yeni mərhələnin başlanmasının əsasını qoymuş oldu. Belə ki, bu səfər çərçivəsində iki ölkə arasında iqtisadi- ticarət, hərbi, nəqliyyat və müxtəlif sahələri özündə əks etdirən 15 mühüm sənəd imzalandı.

Mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlamasında Milli Məclisin deputatı, politoloq Elman Nəsirov bildirdi ki, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfərini ikitərəfli münasibətlərdə ilin hadisəsi adlandırmaq olar: "Bu da təsadüfi deyil. Ənənəvi dostluq və tərəfdaşlıq münasibətləri kimi xarakterizə olunan Azərbaycan-Rusiya münasibətləri bu səfərdən sonra öz inkişafı nöqteyi-nəzərindən yeni mərhələyə daxil olur. Bunun üçün də çox mühüm hüquqi-normativ baza yaradılır. Bir faktı söyləyək ki, səfər çərçivəsində 15 çox mühüm əhəmiyyətli sənəd imzalandı və bunlar əsasən iqtisadi xarakterlidir. Bu sənədlər o qədər əhəmiyyətlidir ki, Rusiya mətbuatı onları ikitərəfli münasibətlərimizdə "yol xəritəsi"nin göstərildiyi sənədlər kimi xarakterizə edib. Hesab edirəm ki, "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat", "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək əməkdaşlıq Proqramı" bu xüsusda qeyd edilməlidir. Səfər çərçivəsində həm iqtisadi-ticarət, humanitar və həm də təhlükəsizlik blokundan olan məsələlər müzakirə edilib. İqtisadi-ticarət blokundan bəhs edərkən hər iki ölkənin dövlət başçısı belə bir inam ifadə ediblər ki, əlaqələrimizin bundan sonrakı inkişafı üçün daha geniş imkan və potensial var. Hazırda iki dövlət arasında ticarət dövriyyəsi 3 milyard dollara bərabərdirsə, bu rəqəmi 3 dəfədən çox artırmaq mümkündür. İmzalanmış sənədlər də buna xidmət edir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan ən çox Rusiyadan məhsul idxal edir, eləcə də ölkəmizin qeyri-neft məhsullarının ixrac edildiyi ölkələr sırasında Rusiya birinci yerdədir. Bu ilin 6 ayının yekunlarına görə Azərbaycan Rusiyaya təxminən 350 milyon dollara yaxın məhsul ixrac edib, idxal isə 788 milyon dollar olub" [1]. Göründüyü kimi, əslində bu yazının faktları Azərbaycanda Heydər Əliyev dövlətçilik məktəbinin necə bacarıqla davam etdirilməsinin sübutudur.

"Kaspi"nin səhifələrində dərc olunan "Prezidentin Rusiya səfəri əməkdaşlığın bütün istiqamətlərində inkişafına töhvə verəcək" [18], "Milli maraqlara söykənən uğurlu xarici siyasət kursu" [19] və s. yazılar dövlətçiliyimizin inkişaf istiqamətlərini göstərən başlıca mövzulardır.

Beləliklə, biz ölkəmizdə fəaliyyət göstərən iki mühüm mətbuat nümunəsində - "Azərbaycan" və "Kaspi" qəzetlərində dövlətçiliyimizin inkişafını faktlarla əks etdirən yazılara diqqət etdik. Bu yazılar göstərir ki, Azərbaycan mətbuatı xalqımızın, millətimizin, müstəqilliyimizin yeni inkişaf mərhələsini böyük vətəndaşlıq və jurnalist peşəkarlığı ilə oxucuya təqdim etməkdədir.

## ƏDƏBİYYAT


1. Azərbaycan və Rusiya əməkdaşlığının yenil yol xəritəsi". "Kaspi" qəzeti, 4 sentyabr 2018
2. Baxşəliyev R. İqtisadi müstəqillik davamlı tərəqqinin davamçısıdır. Azərbaycan" qəzeti, 28 iyul 2018
3. Fərəcova Z. Milli varlığın təzahürü. "Azərbaycan" qəzeti, 1 avqust 2018 (N 169)
4. **Əliyev İ. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2008, 424 s.**
5. Heydər Əliyev və mətbuat. Dörd cilddə, 3-cü cild, Bakı , "Nurlar" nəşriyyatı, 2003 640 s.
6. Heydər Əliyev və mətbuat. Dörd cilddə, 4-cü cild, Bakı , "Nurlar" nəşriyyatı, 2003 640 s.
7. Həsənov Ə. Azərbaycanın geosiyasəti. "Zərdabi LTD MMC" nəşriyyatı, Bakı, 2015, 1056 s.
8. Hüseynov Ş. Milli haqq və ədalət axtarışında. Bakı,"Adiloğlu" nəşriyyatı,2004, 420 s.
9. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı. "Azərbaycan Universiteti nəşriyyatı", 2001, 358 s.
10. Xəzər vacib nəqliyyat artileriyasına çevrilib. "Azərbaycan" qəzeti, 15 avqust 2018
11. Məmmədli C. Öncə söz gəldi... Bakı, "Zərdabi LTD", Bakı, 2018, 312 s.
12. **Məmmədli C. "Kaspi" qəzetinin informasiya siyasəti. "Üç əsrin qəzeti". Bakı, "Qanun" nəşriyyatı, 2011, səh.37-45**
13. **Məmmədov A. "Kaspi" qəzeti – sələfinin layiqli davamçısı. "Üç əsrin qəzeti". Bakı, "Qanun" nəşriyyatı, 2011, səh. 114-123**
14. Müstəqilliyimizin Naxçıvandan başlayan inkişaf yolu. "Kaspi" qəzeti,1 sentyabr 2018
15. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişaf edir. "Azərbaycan" qəzeti, 31 avqust 2018
16. **Vəliyeva S. Kaspi- maarifçilik meydanı. Ön söz. Bakı, Zərdabi LTD, 2016, səh.3-9**
17. "Kaspi"qəzeti, 3 avqust 2018
18. "Kaspi" qəzeti 6 sentyavr 2018
19. "Kaspi" qəzeti 8-10 sentyabr 2018
20. http//heyderaliyev.preslib.az